AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI akad.
Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

*Əlyazması hüququnda*

**TAĞIZADƏ GÜNAY QARASİM QIZI**

# MÜASİR AZƏRBAYCANDA QEYRİ-ƏNƏNƏVİ İSLAM TƏLİMLƏRİ

**İxtisas – 7213.01 Dinşünaslıq**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI – 2016**

Dissertasiya işi AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və İctimai fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Ramiz Əlibaba oğlu Mürsəlov,
*fəlsəfə üzrə fəlsəfə doktoru*

Rəsmi opponentlər: Nəsrulla Naib oğlu Məmmədov
*filologiya üzrə elmlər doktoru*

Səbinə Həmid qızı Mirzəyeva
*İlahiyyat üzrə fəlsəfə doktoru*

Aparıcı müəssisə:

Müdafiə "_06__" __06__________ 2016-cı il tarixində, saat ___ AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində yaradılmış birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az.1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 26.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat___________2016-cı il tarixində göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi

Ilahiyyat üzrə fəlsəfə doktoru: Z.A.Əbilova

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin II yarısı, xüsusilə, son iki onilliyi ərzində adətən vahid bir dünyagörüşü kimi çıxış edən islam daxilində müxtəlif, özünü ənənəvi islama qarşı qoyan dini təlimlər və cərəyanlar meydana gəlir və güclənir. Onların hər biri məhz özünün "əsl islam" olduğunu iddia edir və bu iddiaları çeşidli yollar və vasitələrlə əsaslandırmağa çalışır. Bir sıra hallarda ayrı-ayrı islam cərəyanları bir ölkə hüdudlarından kənara çıxaraq digər müsəlman ölkələrində sosial baza qazanmağa, çalışırlar. Müxtəlif dini təlimlərin təmsilçiləri bu ölkələrin qarşılaşdığı siyasi, iqtisadi və ideoloji durumu çevik surətdə qiymətləndirərək, ona uyğun vasitələrdən – iqtisadi yardımlardan, xeyriyyəçilik tədbirlərindən, dini təbliğatdan, bəzən də radikal addımlardan istifadə etməklə burada müəyyən dəstək tapmağa müvəffəq ola bilirlər. Təbii ki, bu proseslər islam dünyasının bir parçası olan Azərbaycandan da yan keçməmişdir. Qeyri-ənənəvi islam təlimlərinin cəmiyyətimiz üçün təşkil edə biləcəyi təhlükəni vaxtında və düzgün qiymətləndirən Ümummilli Liderimiz Heydər Əliyev 21 iyul 2001-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dini İşlər İdarəsinin əsasında Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə fərman vermişdir. Yaranmış vəziyyətə görə haqlı olaraq narahatlıq keçirən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi bildirmişdir ki, 2002-ci ilin sonlarınadək qeydiyyatda olan 406 dini qurumdan yalnız 40-ı Vergilər Nazirliyində qeydiyyatdan keçmişdir. Hazırda Azərbaycanda hüquqi statusu olmayan 1000-ə yaxın islam, 50-yə yaxın xristian təmayüllü cərəyanlar, 400-ə qədər pir və ziyarətgah fəaliyyət göstərir.[1]

Dövlət Komitəsinin rəhbəri qeyd etmişdir ki, respublikada radikal islam cərəyanları (vəhhabilik, hizbullah) ilə yanaşı radikal xristian sektaları da fəaliyyət göstərməkdədir. O, ayrı-ayrı vaxtlarda Ədliyyə Nazirliyində 28 belə missioner təşkilatının qeydiyyatdan keçdiyini nəzərə çatdırmışdır.

---

[1]Bax: Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Bülleteni. 10, 27 sentyabr, 2002-ci il

Bütün bunlar qeyri-ənənəvi islam təlimlərinin mahiyyət və məzmununu və xüsusilə, Azərbaycanda geniş yayılmış vəhhabilik, nurçuluq və xomeyniçiliyin yayılmasına rəvac verən amillərin və onların fəaliyyət yönümlərinin tədqiqinin aktuallığını gündən-günə artırmaqdadır.

Mövzunun aktuallığlna dəlalət edən amillərdən biri də Azərbaycanda təşəkkül tapmaqda olan islamşünaslıq elminin inkişaf istiqamətlərinin müəyyən edilməsi zərurəti ilə bağlıdır. XX əsrin əvvəllərindən başlayaraq 1991-ci ilin axırlarında Azərbaycan özünün milli müstəqilliyini əldə etdiyi vaxta qədər islam özünü əsasən dini ayinçilik səviyyəsində qoruyub-saxlaya bilmişdir. Bunun bilavasitə nəticəsi kimi dinin dünyagörüşü prinsipləri, mənəvi dəyərləri, nəhayət fəlsəfi fikri demək olar ki, unudulmuşdur. Müstəqil inkişaf illərində islamın çoxəsrlik mənəvi dəyərlərinə təbii marağın artdığı bir zamanda da dinin mahiyyətini təşkil edən komponentlərin öyrənilməsi və Azərbaycanda qeyri-ənənəvi islam təlimlərinin yayılması prosesinin tədqiqi aktual hesab edilə bilər. Belə ki, qeyri-ənənəvi islam təlim və hərəkatları gənc və müstəqil müsəlman ölkələrində daxili sabitlik üçün ciddi təhlükə mənbəyinə çevrilmiş olurlar. Bütün bunlar Azərbaycanda qeyri -ənənəvi islam təlimlərinin yayılması mövzusunun ayrıca bir problem kimi öyrənilməsini əktuallaşdıran amillərdəndir.

**Mövzunun öyrənilmə səciyyəsi.** Məlum olduğu kimi, Azərbaycanda islamşünaslıq nisbətən gənc bir elm sahəsidir. Onun respublikada meydana gəlməsi və təşəkkülü islam amilinin ümumi dirçəlişi ilə əlaqədardır. Lakin Azərbaycan islamşünasları qısa müddət ərzində müəyyən uğurlar qazanmış və bu sahədə özünəməxsus bir ənənə yarada bilmişlər. Son illərdə Azərbaycan islamşünaslığının mühüm məsələlərindən birinə həsr olunmuş əsərlərdən biri E.Y.Həsənovanın qələmindən çıxmış monoqrafiyada[2] müasir elmin mühüm məsələlərindən biri olan XX əsr Türkiyəsində dinin və mistisizmin sosiologiyasının meydana gəlməsi, formalaşması və hazırkı durumu tədqiq olunur. Kitab iki hissədən

---

[2] Е.Ю.Гасанова «Социология религии и мусульманского мистизма в Турции XX века» Баку, 2009

ibarətdir. Birinci hissədə Türkiyədə rəsmi və yaxud "elitar" islamın sosiologiyası, Qərbin mədəni təsiri nəticəsində meydana gəlmiş başlıca dini-ideoloji məktəb və cərəyanlar nəzərdən keçirilir. Tədqiqatın ikinci hissəsi islam zəminində meydana gələn və "xalq islamı" sahəsində fəaliyyət göstərən sufi təriqət, cərəyan və qardaşlıqlarının əməli fəaliyyətinin və buna rəvac verən amillərin öyrənilməsinə həsr olunmuşdur.

Dissertasiyanın mövzusu ilə bilavasitə əlaqədar olan əsərlərdən biri də Azərbaycan tədqiqatçısı Cabir İskəndərlinin "Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər"[3]əsəridir. Həcmcə o qədər də böyük olmayan (cəmi 96 səhifə) bu kitabçada müəllif həm vəhhabilik, xaricilik, nurçuluq, süleymançılıq və qadiriyyə kimi islam təlimləri, həm də krişnaizm, munçuluq, bəhailik, ibrahimilik kimi qeyri-islami təriqət və təlimlər haqqında məlumat verməyə çalışmışdır. Nəticədə isə müəllif həmin təlim və təriqətlər haqqında ümumi məlumat verməklə kifayətlənməli olmuşdur. Digər Azərbaycan tədqiqatçısı Leyla Məlikovanın "Bəhailiyin qaynaqları və əsas dünyagörüşü səpkiləri" adlı monoqrafiyasında bəhai dini təliminin mahiyyət və xarakteri və sosial səpkiləri təhlil edilmişdir. Burada həmçinin, müəllif bəhailiyin Azərbaycanda yayılmasına rəvac verən amilləri müəyyən etməyə çalışmışdır.

Öz simasında həm islamşünas alimi, həm də diplomat istedadını birləşdirən Azərbaycan tədqiqatçısı R.N.Məlikov özünün "Görkəmli islam fundamentalistləri"[4] əsərində yüzdən çox islam qeyri-hökumət təşkilat və onların bariz nümayəndələri haqda məlumat vermişdir. Azərbaycan tədqiqatçısı R.Ə.Mürsəlov özünün "Müasir islam fundamentalizmi"[5] əsərində islamın siyasiləşməsi səbəblərini və burada radikallaşma təmayüllərinin artmasına rəvac verən amilləri müəyyən etməyə çalışmışdır. Əsər Misir "Müsəlman qardaşları" təşkilatının təməl prinsiplərinin və əməli fəaliyyətinin və bu hərəkatın əsas ideoloqlarının əsərlərinin təhlilil əsasında yazılmışdır.

---

[3] C.İskəndərli "Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər" Bakı, 2006
[4] Р.Н. Меликов «Видные исламские фундаменталисты» Баку,2000
[5]R.Ə.Mürsəlov "Müasir islam fundamentalizmi" Bakı, 2004

Kəmalə Məmmədovanın “Nurçuluq: tarixi və hazırkı durumu”[6] kitabını nurçuluğun ideoloji mahiyyətinin, başlıca prinsiplərinin, mənşəyinin, ideya təkamülünün və hazırkı durumunun öyrənulməsinə həsr olunmuş və Azərbaycan tədqiqatçısının yazmış olduğu ilk monoqrafik əsər hesab etmək mümkündür. Azərbaycan islamşünası, mərhum Abutalıb Məmmədovun “İslam fundamentalizmi: mahiyyəti, əsas prinsipləri və təzahür formaları”[7] və “Vəhhabilik: tarixi, ideya sələfləri və əsas təzahürləri”[8] əsərlərində bu dini-siyasi təlimin fəlsəfi məzmunu və mahiyyəti və sələfiliyin islam fəlsəfi fikrində məqamı səciyyələndirilir və onun əməli fəaliyyəti işıqlandırılır. Müəllif dində ifrat təməlçiliyin, fanatizmin, dözümsüzlüyün islamla heç bir əlaqəsi olmadığını qeyd edərək deyir: “Mən qəti əminəm ki, indiki qloballaşma şəraitində yaranmış qarşıdurmada müsəlmanlar öz mənəvi dəyərlərini yalnız mötədil islam sayəsində layiqincə qoruyub saxlaya və təbliğ edə bilərlər”[9]

Dissertasiyanın mövzusu ilə bilavasitə əlaqədar olan elmi tədqiqatlardan biri də gənc Azərbaycan tədqiqatçısı Rəhimov Emil Rahib oğlunun “Müasir islamda məzhəblərarası yaxınlaşma konsepsiyaları” mövzulu namizədlik dissertasiyasıdır. Müəllif islam məzhəblərini bir-birinə yaxınlaşdırma cəmiyyətinin fəaliyyətinin təhlili əsasında islamda məzhəbçiliyin yayılmasının qarşısını almağın mümkünlüyünü qeyd edir, ümumiyyətlə məzhəbçilik təmayüllərinin islam birliyinə qarşı ciddi təhlükə təşkil etdiyini göstərir.

Dissertasiya mövzusu ilə yaxın olan tədqiqatlardan biri də Azərbaycan tədqiqatçısı Y.R.Paşayevin fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün olan “İslamın ideya-siyasi cərəyanların-

---

[6]K.Məmmədova “Nurçuluq: tarixi və hazırkı durumu” Bakı, 2003

[7]A. Məmmədov “İslam fundamentalizmi: mahiyyəti, əsas prinsipləri və təzahür formaları” Bakı, 2004

[8]A.Məmmədov“Vəhhabilik: tarixi, ideya sələfləri və əsas təzahürləri” Bakı, 2008

[9]A.Məmmədov “Vəhhabilik: tarixi, ideya sələfləri və əsas təzahürləri” Bakı, 2008. Səh 10

dan biri kimi vəhhabilik" mövzulu dissertasiya işidir.[10] Müəllif orijinal ilkin mənbələrə əsaslanaraq vəhhabi təliminin mənşəyini və ideya-siyasi mövqeyini açıqlamağa çalışmışdır. Lakin burada vəhhabi təlimi yalnız bir dini təlim kimi nəzərdən keçirilmişdir və beləliklə, bu hərəkatın siyasi məzmunu və prinsipləri müəllifin diqqətindən yayınmışdır.

Müasir islamdaxili proseslər, xüsusilə də müxtəlif islam təlimlərinin yaranması və yayılması, onların radikallaşması və qloballaşmaya və "yeni dünya nizamına" münasibəti keçmiş Sovet–Rusiya islamşünas alimlərin də diqqət mərkəzində olmuşdur. (Bax: Жданов Н.В. ,Игнатенко А.А. «Ислам на пороге XXI века» Москва, 1989; Кудрявтсев А.В. «Исламский мир и палестинская проблема» Москва, 1990; Яковлев А.С. «Социально-политические реформы на родине ислама и дом Саудидов. В книге. Ислам исламизм» Москва, 1999; Игнатенко А.А. «Халифи без халифата Политические организации на Ближнем Востоке»Москва, 1988; Эткин М. «Ваххабизм и фундаментализм термины страшиловки. Центральная Азия и Кавказ» 2001; Игнатенко А.А. «От Филиппин до Косово. Исламизм как главный дестабилизирующий фактор » «Независимая газета» 12 октября 2000; Александров И.А. «Монархии Персидского Залива. Этап модернизации» Москва, 2000; Плахов В.Д. «Традиции и общество. Опыт философско–социологического исследования»Москва, 1982; Зиновьев В.Д. «Запад феномен западнизма» МЧ 1995; Василев А.М. «Пуритане Ислама? Ваххабизм и первое государство Саудидов в Аравии» Москва, 1967; «Мусульманские страны: религия и политика (70-90-е годы)» Москва, 1991; Александров А.Н. «Исламская основа общества и королевства Саудии. Королевства Саудовской Аравии: прошлое и настоящее» Москва, 1998; Иванов И.А. «О некоторых социально – экономических и политических вопросах традиционного ислама

---

[10] Y.R.Paşayev "İslamın ideya-siyasi cərəyanlarından biri kimi vəhhabilik" Bakı, 2004

» V кн. «Ислам в странах Ближнего и Среднего Востока» Москва, 1991 və başqaları.)

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin qarşısında qoyulmuş məqsəd və vəzifələr aşağıdakılardan ibarətdir:

-vəhhabiliyin, nurçuluğun, xomeyniçiliyin, eləcə də İŞİD-in timsalında Azərbaycanda yayılmağa çalışan qeyri-ənənəvi islam təlimlərinin ideoloji prinsiplərini və fəaliyyət yönümlərini aşkar etmək;

-onların maliyyə qaynaqlarını və hansı qüvvələr tərəfindən dəstəkləniyini müəyyən etmək;

-destruktiv fəaliyyətinin qarşısını almaq üçün əməli təkliflər verməkdir.

Müəllif bu təlimlərin dini-əqidəvi mahiyyətini açıqlamaqla yanaşı onların hər birinin Azərbaycanda təzahür xüsusiyyətlərini də müəyyən etməyə çalışmışdır. O, göstərməyə çalışmışdır ki,

- keçmiş sovet müsəlman respublikalarında qeyri-ənənəvi islam təlim və hərəkatlarının yayıla bilməsini ancaq onların əcnəbi havadarlarının maliyyə yardımları ilə yox, həm də onların bu ölkələrdə müəyyən daxili qüvvələr tərəfindən rəğbətlə qarşılanması ilə izah etmək lazımdır.

-bu təlim və hərəkatlar etnik-siyasi parçalanmaya qarşı bu xalqların ənənəvi milli təsəvvürlərinə uyğun olan vahid müsəlman cəmiyyəti ideyasını irəli sürür.

-onların təklif etdiyi, özünün paklığı və sadə həyat tərzi ilə az qala sufiliyə gedib çıxan idarə sistemi öz nüfuzunu itirmiş, tayfabazlığa və rüşvətxorluğa qurşanan siyasi rəhbərliklərdən fərqlənir və bu aşkar üstünlük yerli əhalinin müəyyən hissəsi tərəfindən rəğbətlə qarşılanır. Qeyri-ənənəvi islam təlimləri əhalinin aşağı təbəqələrinin yerli dövlət məmurlarının özbaşınalığına qarşı narazılığından məharətlə istifadə edir, sadə və pəhrizkar həyat tərzi sürməyə, dəbdəbəli həyatdan uzaqlaşmağa, maddi nemətləri mənasız yerlərə sərf etməməyə çağırırlar.

-bu təlimlər mövcud ideya və təlimlərin iflasa uğramasından sonra yaranmış ideoloji boşluğu doldurmağa, sanki əhaliyə əvvəllər məlum olmayan "əsl islam" nümunəsi göstərməyə çalışırlar.

**Tədqiqatın metodu və qaynaqları.** Tədqiqat işi qeyri-ənənəvi islam tarixinin öyrənilməsində qəbul olunmuş ümumi və

xüsusi, tarixi-müqayisəli tədqiqat metodlarına əsaslanır. Bu metodların konkret tətbiqinə gəlincə, o, tədqiqat işinin struktur quruluşu ilə bağlıdır. Tədqiqatın gedişində Azərbaycan və Rusiya tədqiqatçılarının mövzu ilə bu və ya digər dərəcədə əlaqədar olan əsərlərinə, klassik müsəlman ilahiyyatçılarının, o cümlədən, Məhəmməd bin Əbd-əl Vəhhabın təsirləndiyi İbn əl-Qəyyim əl-Cəyuziyyənin və İbn Teymiyyənin ilkin mənbələrinə, Bin Əbd əl-Vəhhabın özünün fundamental əsərlərinə və qeyri-ənənəvi islam təlimlərinin öyrənilməsinə həsr olunmuş müasir tədqiqatlara əsaslanmışdır.

**Tədqiqatın elmi yeniliyi.**Tədqiqat işinin elmi yeniliyi ondadır ki, burada Azərbaycanda və keçmiş Sovet islamşünaslığında ilk dəfə olaraq vəhhabilik, nurçuluq, xomeyniçilik və İŞİD təlimlərinə qeyri-ənənəvi islam təlimləri kimi komplekt şəkildə yanaşılmış, onların hamısı üçün ortaq olan və onları bir-birindən fərqləndirən xüsusiyyətlər aşkar edilmişdir. Burada çıxarılmış mühüm və yeni nəticələrdən biri ondan ibarətdir ki, bu təlimlərin hamısı dini olmaqla yanaşı, həm də siyasi xarakter daşıyır. Onların hamısı siyasi maraqlara xidmət edir və milli gerçəkliyimizə ziddir. Burada qeyri-ənənəvi islam təlimlərinin əsas prinsipləri açıqlanmış və onlar milli mədəniyyətimiz mövqeyindən dəyərləndirilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələri təhsil səviyyəsindən, ictimai mövqeyindən və peşəsindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı üçün əhəmiyyət daşıyır. Burada vəhhabiliyin, nurçuluğun ,xomeyniçiliyin və İŞİD-in timsalında qeyri-ənənəvi islam təlimlərinin mahiyyəti, mənşəyi, fəaliyyət yönümləri, maliyyə qaynaqları və əsl siyasi, iqtisadi və ideoloji məqsədləri haqqında məlumat verilir. Bütünlükdə tədqiqat işindən dinşünaslıq üzrə mütəxəssislər və ilahiyyat fakültəsində təhsil prosesində istifadə edilə bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir tarixi" şöbəsinin iclasında müzakirə edilib müdafiəyə buraxılmışdır. Işin əsas müddəaları və əldə etdiyi əsas nəticələr müəllifin müxtəlif elmi məcmuələrdə nəşr etdirdiyi yeddi ədəd məqaləsində əks etdirilmiş və burada dissertasiyanın məzmunu tamam əhatə olunmuşdur.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın birinci fəsli "İslamda qeyri-ənənəvilik və və onların Azərbaycanda təzahür formaları"** adlanır. Fəslin **"İslamda "əhl əs-sünnə və-l-cəmaə" və "bidət" anlayışları"** adlanan birinci yarımfəslində müəllifin yazdığına görə islam tarixində fikir ixtilafları və müxalifət təşkil edən qüvvələr çox erkən vaxtlardan baş qaldırmışlar. Peyğəmbərin vəfatından sonra "əhl əs-sünnə və-l-cəmaə" təliminin meydana gəlməsi və onun öz rəqiblərini "bidətdə" günahlandırması özü-özlüyündə onu göstərirdi ki, "bütün bəşəriyyətə nazil edilmiş" vahid islam daxilində ciddi fikir ixtilafları yaranmaqdadır və bu ixtilaflar dini ehkamları müxtəlif tərzdə şərh etmək şəklində olduğu kimi, həm də siyasi sahədə - müsəlman icmasına rəhbərlik məsələsində də özünü büruzə verməkdədir. Əslində bu ixtilafların meydana gəlməsi müsəlman mütəfəkkirləri üçün gözlənilməyən bir hadisə deyildi. Peyğəmbər ömrünün axırlarında müsəlmanları bu ixtilaf və qruplaşmalardan xəbərdar edərək demişdi: "Mənim ümmətim yetmiş üç firqəyə bölünəcəkdir." İslamın yarandığı ilk dövrlərdə hökm sürən, müsəlmanların "ən yaxşı nəslinin" zamanında icma həyatını səciyyələndirən ideya birliyini tədricən fikir ixtilafları və məzhəbçilik təmayülləri əvəz edirdi. Bu, bir tərəfdən islam daxilində demokratik ənənələrin və rasionalizmin formalaşması, kəlam məktəbinin yaranması ilə əlaqədar idisə, digər tərəfdən islamın daxili birliyini zəiflədir, onun daxilində bir-birini istisna edən təlimlərin meydana gəlməsinə yol açırdı.

Bütün bunlar öz ümmətini "mətin birlik" şəklində görmək istəyən Peyğəmbərin (s) nəzərindən yayınmırdı. O, deyirdi ki, müsəlmanlar da sabiq ümmətlərin buraxdığı səhvləri təkrar edəcək, hətta onlar "kərtənkələ yarığına" girmiş olsalar belə, müsəlmanlar da onların dalınca gedəcəklər. Peyğəmbər yalnız özü ilə həmçağ olan nəsli əsl müsəlman hesab edir və deyirdi: "Sizin ən yaxşılarınız mənim nəslimdən olanlarınızdır, sonra onların ardınca gələnlərdir (mən təbiəhum)." Peyğəmbər bu minvanla ilkin müsəlmanların bir neçə nəslini sadalayırdı. Bu nəsillərin sonuncusu "Peyğəmbərin

nəslinin ardınca gələnlərdir (tabiu-t-tabiin). Bu nəsil təxminən hicrətin 2020-ci ilinədək yaşamışdır.” Peyğəmbərin (s) etdiyi xəbərdarlığa görə, bu nəsildən sonra müsəlmanların elə nəsli gələcəkdir ki, kəlimeyi-şəhadəti dilində iqrar etdikləri halda öz etiqadlarında səmimi olmayacaqlar. Peyğəmbər bu dindən dönmə prosesinin qarşısını vaxtaşırı islahatlar aparmaqla, dini “saflaşdırmaqla”, dini “sağlam köklərinə qaytarmaqla” almağı tövsiyyə edirdi.

**Fəslin “Müasir qeyri-ənənəvi islam təlimlər”adlanan ikinci yarımfəslində** müəllifin yazdığına görə, müsəlman icması daxilində ilk fikir ayrılığı Peyğəmbərin vəfatından sonra meydana çıxmağa başlamışdır. Müsəlmanlar icmanın dini və dünyəvi həyatı ilə əlaqədar olan bir sıra məsələləri müxtəlif mövqelərdən izah etməyə başlayır, islam fikrində rəy ixtilafları meydana çıxır, nəticədə isə islamda dini-siyasi qruplaşmalar, ideya və cərəyanlar, məzhəb və təlimlər təşəkkül tapırdı. çıxış edən “vəhhabi” təlimi ilə müqayisə etməli oluruq və burada öz ideya-siyasi rəqiblərinə qarşı eyni dözümsüzlüyün, amansızlığın, təkcə özünün dinin təmsil etdiyi barədə əsassız iddiaların şahidi oluruq.

Müasir qeyri-ənənəvi islam təlimləri “Quran”da və Peyğəmbərin (s) deyimlərində baş verməsi labüd sayılan bir proses kimi vurğulanan hədislərin kök salıb yayılması üçün istifadə edilmişdir. Məsələn, müasir vəhhabi təliminin banisi Məhəmməd bin Əbd əl-Vəhhab XVIII əsrdə Mərkəzi Ərəbistanda hökm sürən xürafatları, sosial pərakəndəliyi və bundan irəli gələn ictimai ziddiyyətləri və mədəni-iqtisadi geriliyi öz mənafelərinə uyğun şəkildə, məharətlə qiymətləndirərək mövcud vəziyyətdə dində köklü islahatlar aparmağın zəruriliyini göstərmiş və öz təlimini irəli sürmüşdür. Onların mütəfəkkir və nəzəriyyəçilərinin fikrincə, müsəlman ölkəsində dünyəvi dövlət siyasətini yürütmək düzgün deyildir. Yer üzündə hökm yalnız Allaha məxsusdur və burada cəmiyyətin bütün məsələləri Şəriət hökmləri əsasında tənzim edilməlidir. Bu prinsip qeyri-ənənəvi islam təlim və hərəkatlarını digər müsəlman ölkələrinin daxili işlərinə qarışması üçün bir bəhanə kimi istifadə edir. Digər tərəfdən, qeyd etmək lazımdır ki, qeyri-ənənəvi islam təlimlərinin müsəlman və qeyri-müsəlman dövlətləri ərazisində yayılması bir tərəfdən, Körfəz müsəlman dövlətləri

ərazisində zəngin enerji ehtiyatlarının aşkar edilməsi və bu dövlətlərin maliyyə imkanlarının misilsiz dərəcədə artması, bir sıra müsəlman dövlətlərinin müstəqillik qazanması və digər tərəfdən, bəşəriyyətin yaşamaqda olduğu postindustralizasiya, qloballaşma və dünya xalqları arasında əlaqələrin intensivləşməsi ilə əlaqədardır. Etiraf etmək lazımdır ki, cəmiyyətimizdə milli mentalitetizmə yabançı olan müəyyən fikirlərin, o cümlədən təlim və məzhəblərin yayılması üçün münasib şərait qalmaqdadır. Bu şərait hər şeydən əvvəl, islama marağın artmasında və dini maarifçiliyin zəifliyində özünü büruzə verir. Azərbaycanın xarici aləmə açıldığı, xaricə və xaricdən gediş-gəlişin intensivləşməsi, müsəlman dünyası ilə əlaqələrin genişlənməsi islam və islamçılıq ideyalarının cazibədarlığını artırır, əhali arasında islam dünyasına mənsubluq hissi yeni yönümlər kəsb edir. Bu şəraitdə dinin ənənəvi formaları ilə yanaşı qatı mühafizəkar, radikal şəkilləri də ölkəyə yol tapır. Dini maarifçilik işinin zəifliyi, təhsil prosesinin qeyri-mütəşəkkilliyi, dini ədəbiyyatın müxtəlif qaynaqlardan daxil olması və islam təməlçiliyi də qeyri-ənənəvi islam təlimlərinin meydana gəlməsinə rəvac verən amillərdən sayılmalıdır.

Müasir vəhhabi təlimi özünün fəlsəfi-ideoloji köklərini islam daxilində geniş yayılmış olan sələfilikdən götürür. O, keçmiş Sovetlər Birliyinə daxil olan müsəlman ölkələrində artıq kök salaraq, yayılmış adət-ənənələrə, yerli əhalinin məişətinin bütün sahələrini əhatə edən və artıq dəyişdirilməsi çətin bir iş olan mədəniyyətinə ziddir.

**Fəslin üçüncü yarımfəsli "Nurçuluq və onun müasir Azərbaycanda yayılması"** adlanır. Respublikamızda müəyyən dərəcədə sosial baza və ideoloji dəstək taparaq yayıla bilmiş, və azərbaycan ictimai fikri üçün qeyri-ənənəvi islam təlimlərindən biri nurçuluqdur. Nurçuluq XX əsrin 50-ci illərində meydana gəlmiş dini-siyasi cərəyandır. Bu təlimin nəzəri əsasları Bədiüzzəman Səid Nursinin (1873-1960), son illərdə isə onun ardıcıllarından olan Fərhullah Gülənin dini və fəlsəfi əsərlərində işlənib hazırlanmışdır. Mənşə etibarilə Türkiyədə yaranmasına baxmayaraq, bu təlim bir sıra ölkələrə, o cümlədən Azərbaycana da yol tapmışdır. Bu təlimin ardıcılları müntəzəm olaraq öz məclislərini keçirir, islamı Səid Nursinin təlimi əsasında öyrənir, xüsusi "nur məclislərində" Səid

Nursinin "Risaleyi nur" əsərini mənimsəməyə çalışır, "Quran" kurslarında Səid Nursinin irsini təbliğ edirlər. Nurçuluğun təbliği təkcə dini kitablar deyil, eyni zamanda əyani təbliğat – "Nur market", "Nur aprek", "Nur mağazası" və s. ticarət və kommersiya strukturları vasitəsilə həyata keçirilir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məlumatına görə nurçuluq, islam yönümlü icmaların Azərbaycanda fəaliyyət məkanında dördüncü yer tutur. Bakının bir sıra ali məktəblərində fəaliyyət göstərən ilahiyyat fakültələrində İstanbuldakı Mərmərə Universitetinin müəllimləri də dərs deyirlər. Həmin universitetlərdə nurçuluq geniş yayılmışdır. Bakı, Şəki, Qusar, Mingəçevir, Naxçıvanda dini məktəblərdə tədris prosesində Türkiyəli mütəxəssislər yaxından iştirak edirlər. Bakıdakı "Nil" Kitab Evi başqa ədəbiyyatla yanaşı nurçu ədəbiyyat da yaymaqla məşğuldur. Bütün bunlar nurçuluğun tarixinin və nəzəriyyəsinin öyrənilməsini aktuallaşdıran amillərdir.

Nurçuluğun təbliğ etdiyi mənəvi saflıq, vicdanlılıq, halal-haram gözlənilməsi, xeyirxahlıq, ehtiyacı olana yardım etməyə hazırlıq kimi dəyərlər hər bir cəmiyyət üçün və həmişə aktualdır.

Nurçuluğa görə, Türkiyənin respublika dövrü üçün dinsizlik xarakterikdir.Türkiyə şəraitində dinin dövlətdən ayrılması məqbul sayıla bilməz, ölkədə dövlət dininin İslam olduğu Konstitusiyada öz əksini tapmalıdır.

Azərbaycanda nurçuluğun sosial bazası iqtisadi çətinliklərlə və məmur özbaşınalığı ilə qarşılaşan cəmiyyətin aztəminatlı təbəqələri və bəzi dini məktəblərin müdavimləridir.

Nurçuluq ideologiysında sufizmin nəqşbəndiyə təriqətinin təsiri duyulsa da, Səid Nursi özünün təriqət adamı, yolunun isə təriqət olmadığını qeyd etmiş, namazında bir sıra əməlləri hənəfi məzhəbinin tələblərinə əsasən yerinə yetirdiyini bildirmişdir. O, özünün qeybdən səslər eşitdiyini, övliyalardan müjdə aldığını, çin olan yuxular gördüyünü iddia edir. Nurçular belə hesab edirlər ki, müsəlman dünyasının həqiqi inkişaf və tərəqqisi ancaq islamın meydana gəldiyi ilk illərdə olduğu şəkildə dirçəldilməsi ilə bağlıdır ki, bu da nurçuluqla vəhhabi təli0mi arasında müəyyən yaxınlığın mövcud olduğunu göstərir. Belə ki, Səid Nursi nurçuluğun "pir"i sayılır. Onun vəkili – müavini "ustad" ləqəbini daşıyır. Ayrı-ayrı

bölgələrdə Səid Nursinin “xəlifə”ləri vardır. Xəlifələr ustada tabe olub, fəaliyyətlərini onun təlimi əsasında qururlar.

Azərbaycan tədqiqatçıları Q.Y.Rüstəmov və E.Y.Həsənova-nın “Müasir Türkiyənin ictimai-siyasi fikrində islamın yeri, islam və tərəqqi, islam və millətçilik, islam və lailik və islamın hakimiyyət konsepsiyası”na həsr edilmiş kitab və məqalələrində nurçuluğa dair bəzi maraqlı və faydalı fikirlər mövcuddur. Müasir Türkiyə dini və ictimai fikri üzrə mütəxəssis olan E.Y.Həsənova nurçuluğu mürtəce dini təriqət kimi dəyərləndirir və yazır ki, “Nurçular Türkiyədə gələ-cək ümumdünya müsəlman dövlətinin bir hissəsi kimi teokratiyanın yaradılması lehinə fikirlərini açıq-aşkar bildirirlər. Baxmayaraq ki, Azərbaycanda heç bir icma “nurçuluq” adı altında rəsmi qeydiyyatdan keçməmişdir, nurçuluğun təbliği təkcə dini kurslar və ədəbiyyat yayımı yolu ilə yox, ticarət, kommersiya və xeyriyyəçilik ilə məşğul olan təşkilatlar tərəfindən də həyata keçirilir. Geniş maliyyə imkanlarına malik olan nurçular da öz dünyagörüşünü Azərbaycanda yaymaq üçün başlıca olaraq xeyriyyəçilik, maddi yardımlar və dini təbliğat yol və vasitələrindən istifadə edirlər.

**Birinci fəslin dördüncü yarımfəsli “Xomeyniçilik və onun “vilayəte-fəqih” konsepsiyası” adlanır**. Dini Quramlarla İş üzrə Dövlət Komitəsinin Bülletenində yayılmış “Azərbaycan bölgələrində dini durum haqqında məlumat”a görə respublikanın cənub bölgəsində ifrat şiəliyi dəstəkləmək məqsədilə buraya İranın təsirinin genişləndirilməsinə, sərhədlərin bağlanması ilə əlaqədar olaraq radio və televerilişlərin artmasına, sərhəd zolağından bütün vasitələrlə dini ədəbiyyatın keçirilməsinə cəhd edilir, dini fəaliyyətin gizli formalarına nail olmağa səylər göstərilir.

Xaricdən alınan təlimatlara əsasən, süni olaraq sünnü-şiə qarşıdurmasını qabartmaq, bölgə səviyyəsində dini icmaların, axund və imamların mütəşəkkilliyini təmin etmək üçün cəhdlər göstərilir. Bütün qeyri-ənənəvi islam məzhəbləri üçün ümumi olan başlıca xüsusiyyət onların dövlətçiliyimizə zidd olması və xüsusi hakimiyyət konsepsiyası ilə çıxış etməsidir. Biz nə sünniliyi, nə də şiəliyi özü-özlüyündə Azərbaycan ictimai fikri üçün qeyri-ənənəvi hesab edirik. Bu münasibətlər yalnız süni şəkildə qabardıldığı hallarda gərginləşir. Bu qabardılma hadisəsi isə xarici qüvvələrin müdaxiləsi və bu gərginlikdən öz mənafeləri üçün istifadə etmək cəhdləri nəticəsində

gerçəkləşir. Azərbaycan vətəndaşlarının qarşılaşdığı problemləri ifrat şiə nəzəriyyəçiləri özlərinin "vilayəte-fəqih" konsepsiyasının gerçəkləşdirilməsi yolu ilə aradan qaldırmağı təklif edirlər.

İslam hüququ üzrə professor Ayətullah Mehdi Hadəvi Tehranda nəşr edilmiş "Din və Dövlət İslam baxımından" mövzulu məqaləsində yazır: "Dövrümüzün dahi İslam mütəfəkkiri imam Xomeyni tərəfindən "vilayəte-fəqih" nəzəriyyəsi əsasında qurulmuş cəmiyyətdə bu barədə bir çox sualların meydana gəlməsinə səbəb olmuşdur. Bu nəzəriyyə dinin dövlətdən ayrılığına əsaslanan dünyəvilik nəzəriyyəsinə müxalifdir. Xomeyninin "Sistemli fikirlər nəzəriyyəsi" təsdiq edir ki, islam məkan və zamandan asılı olmayaraq, dəyişməz, həmişəyaşar elementlərdən ibarətdir. Bunlardan biri də insan həyatının ən vacib elementlərindən olan siyasətdir. İslam istər regional, istərsə də beynəlxalq səviyyələrdə münasibətləri tənzim etmək üçün konkret siyasi prinsiplər təklif edir. İfrat şiə nəzəriyyəçilərinin fikrincə, bu prinsiplər öz ifadəsini ideal modeli təmsil edən "vilayəte-fəqih" təlimində tapır. Bu təlimin məğzini belə izah etmək olar: Peyğəmbər əleyhissəlamın həyatından və sonuncu məsum imamın qeybə çəkilməsindən sonra cəmiyyət üzərində rəhbərlik missiyası islam təliminin ən şüurlu və əməlisaleh nümayəndələri üzərinə qoyulur. Bu insanlar fəqihlərdir və onların rəhbərliyi "vilayəte-fəqih" adlanır. Onlar Əli əleyhissəlamın bu sözlərinə inanırlar: "Qanunun yaxşı və ya pis olmasına baxmayaraq, heç kəs ondan yaxa qurtara bilməz." İfrat şiə nəzəriyyəçiləri belə hakimiyyət formasını sosial zərurət hesab edirlər. Beləliklə, Xomeyni də daxil olmaqla müsəlman cəmiyyəti tərəfindən dəstəklənən fəqih "vəli" (siyasi rəhbər) təyin olunması fikri "vilayəte-fəqih" dəlilləri ilə üst-üstə düşür.

Şiə alimlərinin fikrincə, islam kütləvi düşüncəsinin formalaşmasında başlıca rolu iqtisadi, ideoloji və ya fəlsəfi amillər yox, siyasi amillər oynayır, burada siyasət islam prinsipləri əsasında həyata keçirilən dövlət quruculuğunun təməl daşı hesab olunur. İfrat şiələrin vəhhabilərdən narazılığı hər şeydən əvvəl özünü onda büruzə verir ki, vəhhabilər həm sünniləri, həm də şiələri "dinə zidd bütpərəstlik dövrünü təmin edən mövqelərdə durmaqda", Peyğəmbərin imamların qəbirləri yanında yalnız namaz qılmaqda və onlardan şəfaət diləməkdə günahlandırırlar. Şiə mütəfəkkirləri isə

iddia edirlər ki, vəhhabilər müsəlmanların var-dövlətindən istifadə edərək böyük dövlətlərin destruktiv planlarının həyata keçirilməsinə xidmət edirlər. İfrat şiə məzhəbinin başlıca ehkamlarından biri imamət – müsəlman dövlətində ali hakimiyyət haqqında təlimdir. Ölkəmizdə xomeyniçilik ideologiyasını yaymağa çalışan ifrat şiə məzhəbinin missionerləri cəmiyyətin aztəminatlı təbəqələrinin nümayəndələrini, dini təhsil ocaqlarının müdavimlərini asanlıqla öz təsiri altına ala bilirlər. Buna görə də, bizə belə gəlir ki, ifrat şiəliyin yayılmasının qarşısı başqa qeyri-ənənəvi məzhəblərlə eyni əzmkarlıqla və qətiyyətlə alınmalıdır.

**Dissertasiyanın “Müasir Azərbaycanda vəhhabi təliminin yayılması”** adlanan ikinci fəslinin **“Vəhhabi təliminin başlıca prinsipləri”** adlanan birinci yarımfəslində müəllifin qeyd etdiyinə görə, müasir Azərbaycanda yayılmış qeyri-ənənəvi islam təlimləri arasında ən radikalı, ən mütəşəkkili və ən təhlükəlisi vəhhabi təlimi və hərəkatıdır. Bu təlim artıq özünün əqidəvi platformasını işləyib hazırlamış, kifayət qədər geniş baza və etibarlı maliyyə qaynaqları qazanmış və özünün əqidəvi prinsiplərini və siyasi iddialarını radikal vasitələrlə həyata keçirməyə çalışır. Vəhhabi təliminin ən təhlükəli cəhətlərindən biri ondan ibarətdir ki, onun ardıcılları öz siyasi məqsədlərinin həyata keçirilməsi naminə hər bir qüvvə ilə razılığa gəlməyə və hər vasitədən istifadə etməyə hazırdırlar. Buna görə də Azərbaycan mətbuatında vəhhabi təlimi və hərəkatı haqqında tez-tez həyəcanlandırıcı materiallar nəşr olunur. Vəhhabi təliminin səciyyəvi əlamətlərindən biri də ondan ibarətdir ki, o, daima siyasətlə sıx əlaqədə çıxış etmiş, müxtəlif dairələrin siyasi mənafelərinə xidmət etmiş və öz fəaliyyətində amansız terror əməllərindən istifadə etmişdir. Onlar öz terror əməlləri ilə dinc əhalidə qorxu hissi, yerli dövlət strukturlarına qarşı inamsızlıq oyatmağa, cəmiyyətdə kütləvi iğtişaş yaratmağa və beləliklə, öz siyasi və əqidəvi platformalarını əhaliyə güclə qəbul etdirməyə çalışırlar.

Vəhhabi təliminin aparıcı prinsiplərini Hənbəli ilahiyyatçısı İbn Teymiyyə (vəfatı–1328) və onun şagirdi İbn əl-Qəyyim əl-Cəuzuiyyənin (vəfatı–1350) əsərlərində müşahidə edə bilərik. Lakin qeyd etmək lazımdır ki, həmin hökmlər Məhəmməd bin Əbd əl-Vəhhabın təlimində daha qəti, daha ifrat şəkildə qoyulur və izah

edilir. Əgər nəzərə alsaq ki, İbn Teymiyyə istər Misirdə, istərsə də Suriyada fəaliyyət göstərdiyi dövrdə Allaha insani sifətlər şamil etdiyi üçün antropomorfizmdə (müşəbbihə) günahlandırılaraq dəfələrlə həbs edilmiş və dünyasını da həbsdə ikən dəyişmişdir. Dörd yüz ildən sonra onu özünə müəllim seçmiş İbn Əbdəl-Vəhhabın ifratçılığı haqda təsəvvür əldə edə bilərik.

Bununla da təkcə islam inteqrasiyası hərəkatının yox, deinteqrasiya təmayüllərinin də genişlənməsindən söhbət aparmağa əsas yaranmış oldu. Artıq islam, bir çox hallarda vahid ideologiya şəklində yox, ayrı-ayrı islami təlimlər şəklində çıxış etməyə başlayır.

Müasir dövrdə vəhhabi təlimi "əsl islam" adından çıxış edən, öz təlimini xarici müsəlman ölkələrində yaymağa çalışan bir dini-siyasi təlimdir. Bu təlim aşağıdakı prinsip və müddəalara əsaslanır:

Böyük və kiçik günahlar; bidət; övliyaların qəbirlərinin hörmətini saxlamaqla ifrata varmaq bütlərə sitayiş etməyin və onları böyük tutmağın əsas səbəbidir; "Quran"ın mütəşabih ayələrinə münasibət.

Bu prinsipləri öz əsərlərində əsaslandırmağa çalışan Məhəmməd bin Əbdəl-Vəhhab aşağıdakı məsələlərin şərhini vermişdir: Allaha şəriklər qoşmaq məsələsi; İnsanı Məhəmməd ümmətindən xaric etməyən kiçik küfr; Övliyaların şənini uca tutmaqda ifrata varmaq (əl-ğülüvv fi-s-salihin); "Bütlərə ibadət etmək" məsələsi; Etiqad məsələlərində bidət.

Allahın adları və sifətlərinə gəlincə, M.Ə. əl-Vəhhabın təvəssül, tilsim və cadu məsələləri, küfirdə günahlandırılmaq, və döyüşmək, bidət və s. məsələlərlə bağlı fikirləri də şərh edilmişdir..

**İkinci fəslin ikinci yarımfəsli "Vəhhabilik Azərbaycan-dakı dini etiqad plüralizmi baxımından" adlanır.**

Müasir Azərbaycanın daxili həyatının digər sahələrində olduğu kimi dini həyatında da yeni bir ab-hava – etiqad plüralizmi hökm sürür. Bu, Sovet dövründə ateizm ideologiyasının təsiri altında yaşamış Azərbaycan xalqı üçün yeni, misli görünməmiş bir hadisədir. Azərbaycan özünün müsəlman dünyasının bir hissəsi olduğunu bəyan edərək, bu coğrafi məkanla siyasi, iqtisadi və mədəni əlaqələrini bərpa etməyə çalışır. Əvvəllər Bakıda Səudiyyə Ərəbistanından, İran İslam Respublikasından, Misirdən, Livandan,

və yaxud Sudandan olan, islam dininə etiqad edən insanları görmək yerli əhalidə təəccüb doğururdusa, indi Respublikanın ucqar rayonlarında belə xarici müsəlman ölkələrindən olan din xadimlərini və iş adamlarını görürük. Onlar burada çeşidli fəaliyyət növləri ilə məşğuldurlar. Onlar Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində çalışır, sərbəst şəkildə yerli əhali ilə ticarət əlaqələrinə girir və heç nədən çəkinmədən təmsil etdikləri dövlətin, təşkilatın və təlimin mənafelərini həyata keçirməyə çalışırlar. Azərbaycan Respublikasının dini etiqad sahəsində yürütdüyü plüralist siyasət bu fəaliyyət üçün hər cür imkanlar vermişdir. Digər tərəfdən, unutmaq olmaz ki, ölkəmizə islam dini sayəsində nüfuz edə bilmiş dini təşkilat və hərəkatlar ümumiyyətlə islam daxilində baş verən parçalanma və məzhəbçilik ruhunu da özləri ilə respublikamıza gətirmişlər. Onlar dini ayinlər, ibadət və hüquq məsələlərinin şərhində bu məzhəblərin mövqeyindən çıxış edir, əksər hallarda ölkəmizdə yayılaraq dərin kök salmış ənənəvi islamdan fərqli olan çeşidli islam təlimlərini təbliğ edirlər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin verdiyi məlumata görə, bu gün ölkəmizdə 1300-ə yaxınməscid, 40-dan artıq kilsə, sinaqoq və ibadət evləri, müasir Azərbaycanın ərazisində məskunlaşmış xalqların dini keçmişi ilə bağlı olan 500-dən artıq müqəddəs yer mövcuddur.[11] Uzun müddət öz dinindən uzaqlaşdırılmış, yüksək ixtisaslı din mütəxəssislərindən məhrum edilmiş yerli əhali asanlıqla bu məzhəb və təlimlərin təsiri altına düşür.

Ölkəmizdə dini etiqad plüralizmindən və bu şəraitdə qeyri-ənənəvi islam təlimlərinə münasibətdən bəhs edərkən ölkəmizdə fəaliyyət göstərən müxtəlif xeyriyyə cəmiyyətlərinə və onların əsl məqsədlərinə də toxunmaq lazımdır. Bu məsələ ilə bağlı üç məqamı nəzərə çatdırmaq istərdik:

1. Xeyriyyəçilik və humanitar yardımın ümumiyyətlə dinlə bağlılığını normal bir hal kimi qəbul etməli, bu üç amilin balansını yaratmağa nail olmalı;

---

[11] Bax: Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Bülleteni. 10,2004, səh.43

2. Dinə görə xeyriyyəçilikdən, xeyriyyəçiliyə görə isə dini təbliğatdan imtina etmək normal hal sayıla bilməz;

3. Xeyriyyəçilik və humanitar yardımın dinlə bağlılığı qadağan olunmuşdur. Lakin maddi yardımı dini icmalar vasitəsilə həyata keçirmək və beləliklə, siyasi, iqtisadi, hərbi və ya təbii fəlakətlərə məruz qalmış xalqların ehtiyaclarından süi-istifadə etmək "Dini etiqad azadlığı haqqında Qanun"la ziddiyyət təşkil edir.

Dövlət qurumları ilə qeyri-ənənəvi islam təlimləri arasında meydana çıxan fikir ixtilafları aşağıdakı məsələləri əhatə edir:

Onların fikrincə, Allahın hökmünə əsaslanmalı olan hakimiyyəti yalnız din adamları idarə etməlidirlər; Öz fəaliyyətlərinə dövlət tərəfindən nəzarət edilməsini və işinin tənzimlənməsini qəbul etməyərək, mütləq sərbəstlik tələb edirlər ki, bu da çoxkonfessiyalı bir ölkə olan Azərbaycanda daxili sabitliyin pozulmasına gətirib çıxara bilər; Respublikada etiqad edilən islamın "əsl islam" olduğunu qəbul etmir və "əsl islam"ı məhz özlərinin təmsil etdiklərini iddia edirlər; Müsəlman aləmini qeyri-müsəlman dünyasına qarşı qoyur, "islamdan dönmüş" xalqları islama qaytarmaq haqqında iddialarla çıxış edirlər.

**Ikinci fəslin üçüncü yarımfəsli "Vəhhabi təliminin siyasi hakimiyyət konsepsiyası" adlanır.** Burada müəllifin yazdığına görə, vəhhabi təliminin ideoloji arsenalında, xüsusilə də onun "cihad" konsepsiyasında siyasi hakimiyyət və onu ələ keçirmək yolları problemi xüsusi yer tutur. Onların xarici müsəlman ölkələrindəki fəaliyyətində son məqsəd burada legitim hakimiyyəti güclə devirmək və onu dini dövlətlə əvəz etməkdir. Onlar əsaslandırmağa çalışırlar ki, islamın ilkin kökünə qayıtmaq və onu bərpa etmək siyasi hakimiyyətin qeyri-islami qüvvələrə məxsus olduğu şəraitdə mümkün deyildir. Bunun üçün həmin ölkələrdə kütlələrin dini maarifləndirilməsinə nail olmaq və "kütləvi islam hərəkatı" yolu ilə mövcud hakimiyyət quruluşunu devirərək islam dövləti qurmaq lazımdır. Onların təbliğ etdikləri "hakimiyyət konsepsiyası"nın mahiyyəti bu və ya digər müsəlman ölkəsində mövcud olan hakimiyyət quruluşunu küfrdə günahlandıraraq onun devrilməsinin zəruriliyini əsaslandırmaq cəhdlərindən ibarətdir.

**İkinci fəslin dördüncü yarımfəsli "Müasir Azərbaycanda vəhhabiliyin təzahürləri"** adlanır. Vəhhabi təliminin müasir Azərbaycanın dini-əqidəvi və ictimai fikrində təzahürü formalarından bəhs edərkən vəhhabi nəzəriyyəçilərinin geniş istifadə etdikləri vasitələr arasında iqtisadi-ticari əlaqələri və xeyriyyə yardımlarını, dinc təbliğat vasitələrini, dini maarifçiliyi, yeni məscidlərin tikintisini və eyni zamanda, radikal metodları xüsusi olaraq qeyd etmək lazımdır. Vəhhabi məzhəbi və hərəkatı radikal islam dini-siyasi hərəkatıdır. Bu baxımdan, onun öz fəaliyyətində radikal əməliyyatlara üstünlük verməsi təbiidir. Lakin onun fəaliyyətinin ancaq radikal, ekstremist, terror əməliyyatları şəklində təzahür etdiyini düşünmək səhv olardı. Əlbəttə, bu hərəkatın son məqsədi, ölkəmizdə qurulan dünyəvi dövlət formasını dini dövlətlə əvəz etməkdir. Bu son məqsədə nail olmaq üçün hər cür «ikinci dərəcəli» vasitələrdən istifadə etməkdən çəkinmirlər.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu gün vəhhabi hərəkatı özünün ekstremist əməlləri ilə dünya ictimaiyyətinin nəzərində dəhşətli bir obraz yaratmışdır. Dinc əhali sadəcə olaraq vəhhabi hərəkatını təxribatla, terrorla, adam oğurluğu ilə, nəqliyyat vasitələrinin qaçırılması ilə, dinc əhaliyə qarşı sui-qəsd halları ilə eyniləşdirməkdədir. Belə vəziyyətdə «vəhhabi» (vəhhabi hərəkatının davamçısı) adı altında çıxış etmək sadəcə olaraq, əlverişli deyildir. Bu ad dünyanın hər bir nöqtəsində qorxu və ehtiyatla qarşılanır. Müvafiqən, vəhhabilər öz həqiqi simasını «müvəhhidilər», «əhl əd-dəəvə», «əhl əl-Quran», «Cünudullah» və s. adlarla gizlətməyə çalışırlar. Özlərini ənənəvi islam tərəfdarlarından fərqləndirmək üçün «əsl islamçılar» adlandırılırlar. Bu gün islam dünyasını narahat edən qeyri ənənəvi qruplaşmalardan biri də İŞİD-dir. Bu qruplaşmanın bir növ vəhhabiliyin davamı olduğunu nəzərə alaraq ona xüsusi bölmə ayrilmamış, ardıcıl olaraq xronoloji faktları vermək qənaətinə gəlinmişdir. Belə ki, İraq müharibəsinin başlamasından qısa bir müddət sonra «Camaat əl-Tövhid vəl-Cihad» adı ilə qurulan qruplaşma 2004-cü ilin oktyabrında Əl-Qaidəyə bağlılığını elan edərək «Tanzim Kaidat əl-Cihad fi Biləd el-Rafideyn» (daha çox«İraq Əl-Qaidəsi» adı ilə tanınır) adını götürdü.2006-cı ilin yanvar ayında «Ceyş ət-Taifa Əl-Mənsur»,

«Ceyş Əhli-Sünnə vəl-Camaa», «Ceyş əl-fatihin», «Cund əs-Səhabə» kimi kiçik qruplarla birləşən qruplaşma «Mücahidun Şura Konseyi» adını aldı. 2006-cı ildə ABŞ kəşfiyyatının hazırladığı hesabatda təşkilatın üzvlərinin sayının 1000-dən yuxarı olduğu bildirilirdi. İraq müharibəsinin qızğın dövründə Anbar, Ninəvə, Diyalə, Babil, Kər-kük və Səlahəddin bölgələrində aktivlik göstərən qruplaşma üzvləri 2006-cı ilin 15 oktyabr tarixində paytaxtı Baquba şəhəri olan «İraq İslam Dövləti» adlı dövləti elan etdilər. Bu tarixdən etibarən «Mücahidun Şura Konseyi» adı altında toplaşan qruplaşmaların keçirdiyi əməliyyatlar «İraq İslam Dövləti» adıyla keçirilməyə başladı. 2011-ci ildən etibarən ABŞ ordusunun İraqdan çıxmasından sonra təşkilat üzvlərinin sayının 2 dəfədən çox artdığı haqqında məlumatlar var idi. 2013-cü ilin aprel ayında İŞİD əmiri Əbu Bəkr əl-Bağdadi yayımladığı səs yazısında Əl-Nusra Cəbhəsinin İŞİD tərəfindən yaradıldığı, maliyyələşdirildiyi və dəstəkləndiyi açıqlamasını verdi. Və bu tarixdən etibarən hər iki qruplaşmanın «İraq və Şam İslam Dövləti» adı altında fəaliyyət göstərəcəyini bildirdi.Çeçenistanın başçısı Ramzan Kadırov İŞİD terror təşkilatını islama qarşı gizli müharibə elan eləmiş ABŞ-ın və digər Qərb dövlətlərinin törəməsi adlandırıb. Onun sözlərinə görə, “Şeytan yolu ilə gedən” vəhhabilər əllərindən gələni edirlər ki, islamı dünyada gözdən salsınlar. Musavat.com-un məlumatına görə, bu barədə o, özünün istargam səhifəsində yazıb. “Hesabatlar sübut edir ki, İŞİD-in hərəkətləri də islamı daxildən sarsıtmaq, dünyanı islamdan üz döndərmək niyyəti güdür. Onların qəddarlığı, baş kəsmələri, insanları tonqalda yandırmaları imam xəlifələrin və peyğəmbər nəvəsinin qatillərinin törətdiklərinin davamıdır”.

Təşkilatın öz daxili hədiyyələri, zənginlərdən pul toplanması, soyğun kimi maliyyə tədbirlərin yanında başqa gəlirləri də var. RAND araşdırma şirkəti tərəfindən İraq əl-qaydası və İraq İslam Dövlətinə aid ələ keçirilən 200-dən çox sənəd, xərcləmə hesabatı və bənzəri sənəd analiz edilərək bir araşdırma edildi. Araşdırma nəticələrinə görə 2005 ilə 2010 arası təşkilata xaricdən yığılan hədiyyə nisbəti yalnız 5% idi. Qalan hissə İraq daxilində qaçırma, saxlama, girov alma və digər əməliyyatlarda əldə edilən gəlirin 20% -ni qrup mərkəzinə göndərməklə əldə olunur. Yüksək rütbəli komandirlər bu gəlirləri yeni hücumlar reallaşdırıla bilməsi

üçün yerli və ya regional vahidlərə köçürlər. Bütün bunlar İraq İslam Dövlətinin nağd pul baxımından Mosuldakı üzvlərindən asılı olduğunu göstərir. İraq kəşfiyyatının bir İŞİD agentindən əldə etdiyi məlumata görə təşkilatın 2 milyard dollarlıq maliyyə gücü var. Bu sərvətin böyük əksəriyyətini Mosul Mərkəz Bankından oğurlanan pul və qızılların təşkil etdiyi göstərilir.

Aradan aylar keçdikdən sonra ABŞ-ın IŞİD-lə maraqları uyğunlaşmadıqda 7 Avqust 2014-cü ildə ABŞ prezidenti Barak Obama IŞİD-ə qarşı hava hücumu əmri verdi. Bəzi mənbələrə görə ABŞ IŞİD -i yalnız Kürdüstan və Ərbil ətrafını bombalayaraq sadəcə keçmiş müttəfiqləri olan kürdləri qoruduğunu deyir. Təşkilatın idarə heyətinə toxunmadığı irəli sürülür. Ən son Türkiyə Cümhuriyyətinin öz torpaqları xaricində sahib olduğu tək quru parçası olan Süleymanşah türbəsinin yerini dəyişdirməsi ilə deyə bilərik ki Türkiyə hökuməti faktiki olaraq ya İŞİD-dən çəkinir ya da ki əlbir hərəkət edir. Bu gün ABŞ, AB, bölgə ölkələri, kürdlər, ələvilər, yezidilər, azərbaycanlılar, şiələr, solçular və ya sosialist qrupların ilk dəfə bir mövzuda İŞİD-in yox edilməsində ortaq fikrə gəldiyinin şahidi oluruq.Bəzi qaynaqlara görə təxminən 50 min silahlı xadimi ilə Yaxın Şərqdə həm iki ölkəni birləşdirərək bir İslam dövləti qurma layihəsi əslində BOL (Böyük Orta Şərq Layihəsi) ‘nin davamıdır. ABŞ və qərbli imperialistlərin böl, parçala və idarə et siyasətinin bir mərhələsi də ola bilər. İŞİD, Əl Qaidə, Əl Nusra və ya azad Suriya Ordusu ancaq bu layihənin bir iştirakçıları ola bilər ! Demokratiya, Bərabərlik, Ədalət və azad bir dünya xəyali olanların bu proyektdə rol alması düşünülə bilməz.

İŞİD yaraqlıları 2014-cü ilin yayından 2015-ci ilin sentyabr ayına qədər 95 qadın müxtəlif səbəblər üzündən öldürüb. İŞİD terror təşkilatı Suriyanın Kobani şəhərində gəzərək dinc əhaliyə divan tutur, evlərə girir, qadınları və qızları zorlayır, kişilərə isə müxtəlif əzablar verərək öldürür[28]. İraqın Mosul şəhərində isə İŞİD terror qruplaşması tərəfindən ən azı 120 nəfər edam edilib, 350-dən çox şəxs əsir götürülüb. Yuxarıda qeyd edildiyi kimi, bu qruplaşmanın bir növ vəhhabiliyin davamı olduğunu və prosesin hələ başa çatmadığını nəzərə alaraq ona xüsusi bölmə ayrilmamış, ardıcıl olaraq xronoloyi faktları vermək qənaətinə gəlinmişdir.

**Dissertasiyanın nəticə hissəsində** tədqiqata yekun vurulur və əldə edilmiş nəticələr göstərilir. Onlar aşağıdakılardır:

1.Qeyri-ənənəvi islam təlimlərinin kifayət qədər dərin tarixi köklərə malik olduğuna baxmayaraq, onların Azərbaycanda yayılmağa başlaması keçən əsrin son onilliklərinə təsadüf edir. Sovetlər Birliyinin dağılması və kommunist ideologiyasının süquta uğraması, müstəqillik qazanmış ölkələrin müsəlman dövlətləri ilə əlaqələrinin genişlənməsi, xarici təsirlərə müqavimət göstərmək qabiliyyətinin zəifliyi, ənənəvi sosial-iqtisadi və siyasi strukturların dağılması və yenilərinin hələ yaranıb möhkəmlənməmiş olması ilə əlaqədardır;

2. Bu təlimlərin hər biri "əsl islam" məqamına iddialarla və hətta yeganə haqq din iddiaları ilə çıxış edir, respublikamızda onların təklif etdiyi teokratik dövlət quruluşunu yaratmağa çalışırlar;

3.Onların hamısı ölkəmizdə qurulmaqda olan dünyəvi dövlətə qarşı düşmən mövqeyi tutur, son məqamda bu dövlətin dini dövlətlə əvəz edilməsi məqsədini güdür;

4. Ölkədə sosial-iqtisadi problemlər qaldıqca bu təlimlərin yayılmasına rəvac verən amillər də qalacaqdır. Qeyri-ənənəvi islam təlimlərinin hamısı dini-əqidəvi məsələlərlə yanaşı siyasi məqsədlərlə də bağlıdır;

6. Vahid islam dünyagörüşü daxilində bir sıra mənafeləri ifadə edən təlimlərin meydana gəlməsi təmayüllər islamın interaktiv potensialını zəiflədir, ictimaiyyətin diqqət və marağının cəmiyyətin aktual problemlərinin həllindən yayındırılmasına səbəb olur.

7. Qeyri-ənənəvi islam təlimlərinin hamısı dinin ilkin, sağlam köklərinə qayıdış çağırışı ilə çıxış edir. Lakin bu qayıdış təkcə ibadətlər və islam ayinləri sahəsi ilə məhdidlaşmayıb, cəmiyyətin siyasi həyatına müdaxilə etmək səyləri ilə bağlıdır;

8. Hər bir xeyriyyə və ya humanitar yardım son nəticədə müəyyən bir xarici təsir, bir asılılıq gətirir. Buna görə də xeyriyyə yardımlarına ehtiyac doğuran amilləri daxili imkanlar hesabına aradan qaldırmağa çalışmaq lazımdır;

9. Öz təliminin yayılması üçün istifadə etdiyi vasitə və metodlardan asılı olmayaraq, bütün qeyri-ənənəvi islam təlimləri milli mədəniyyətimizə, adət-ənənələrimizə, milli mentalitetimizə və nəhayət, dünyəvi dövlətimizə ciddi təhlükə təşkil edir;

10. Rəsmi dövlət strukturlarının ölkədəki qeyri-ənənəvi islam təlimlərinin yayılmasında narahat olduğundan 2001-ci ilin iyun ayında Ümummilli Liderimiz Heydər Əliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təsis edilməsi haqqında Fərman imzalamış və bu qurumların işini tənzim etməyi ona həvalə etmişdir;

12.Qeyri-ənənəvi islam təlimlərinin Respublikamızda yayılmasının qarşısını almağın ən münasib yolu burada yürüdülən dini dözümlülük siyasətini dəstəkləməklə bərabər iqtisadi, ictimai və mədəni təzadları aradan qaldırmaq, dini maarifçiliyi genişləndirmək və milli ideologiyanın formalaşmasını sürətləndirməkdir.

**Dissertasiyanın əsas məzmunu öz əksini müəllifin aşağıdakı məqalələrində tapmışdır:**

1. Meqali İdea nədir?, AMEA Bəhmənyar adına Fəlsəfə və Hüquq İnstitutu "Ekologiyanın fəlsəfi problemləri" şöbəsi, Ekologiya Fəlsəfə Mədəniyyət, 22-ci buraxılış, Bakı "ELM" 1999-cu il;
2. Xomeyniçilik və onun "Vilayəte-fəqih" konsepsiyası", AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Azərbaycan Şərqşünaslıq Elminin İnkişaf Yolları, Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, 27-28 iyun 2013-cü il;
3. "Vəhhabiliyin mənşəyi və başlıca prinsipləri", AMEA "Sevil" Azərbaycan Qadınlar Məclisi, "Elmi-Mədəni Tərəqqi və Qadın" mövzusuna həsr olunmuş elmi konfransın materialları, Bakı, 2003-cü il;
4. "Azərbaycan və qeyri-ənənəvi islam məzhəbləri ", AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 1-4, Bakı, 2006-cı il;
5. "Bəhai məzhəbi Azərbaycanda qeyri-ənənəvi məzhəb kimi", Azərbaycan Dövlət Pedaqoji Universiteti, Xəbərlər, humanitar elmlər seriyası, №4, 2005-ci il;
6. "Положения "Такфир" И "Джихад" В учении ваххабизма., Культура Народов Причерноморья--- ISSN 1562-0808, №200, 2011-ci il.

**Тагизаде Г.Г.**

**Распространение нетрадиционных Исламских учений в современном Азербайджане**


**РЕЗЮМЕ**

Диссертация посвящена исследованию процессов возникновения нетрадиционных исламских учении – нурджизма, хомениизма и ваххабизма в современном Азербайджане, выявление факторов, способствовавших их распространению, источников их финансирования, а так же выдаче определенных рекомендации по пресечению их распространению в современном Азербайджане. Она состоит из введентя, трех глав, заключения и списка использованной литературы. Во введении обосновывается актуальность темы диссертации, выявляется степень ееизученности в отечественной литературе и характеризуется научная новизна работы.

Первая глава диссертации называется «Нетрадиционность и появления первых разногласии в исламе». Здесь объясняется значение «дюдей истины и солидарности», приведшие к расхождениям в раннем исламе.

Во второй главе характеризуются особенности каждого из нурджизма, хомениизма и ваххабизма, их общие черты и проявления в Азербайджане.

Третья глава называется «Распространение ваххабизма в современном Азербайджане». В ней отмечается особо опасный, радикальныйхарактер этого учения.

В заключительной части диссертации обобщаются выводы, сделанные автором в ходе исследования.

**Dissemination of non-traditional Islamic doctrines in modern Azerbaijan**

**Abstract**

The research work has been dedicated to the study of emergence and dissemination of Wahhabism, the Nur movement and the Khomeini movement, as well as factors stimulating their dissemination in Azerbaijan. Besides, financial sources and activity principles of these movements are revealed and suggestions are given to prevent dissemination of such doctrines. The research work consists of introduction, three chapters, conclusion and references. Topicality of the research work is substantiated in the introduction. Besides, level of researches in this sphere and innovation of the research work are characterized in the introduction.

The first chapter of the research work is named “Non-traditionalism and sectarian disputes in Islam”, where “Ahlus-Sunna wal-Jamaah” concept is explained. The author presents here how the first Islamic sectarian disputes occurred and researches the process of emergence of non-traditional Islamic doctrines.

Named “Non-traditional Islamic doctrines and their appearance forms”, the second chapter presents information on the history of formation of Wahhabism, the Nur movement and the Khomeini movement in Azerbaijan.

The third chapter of the research work is named “Dissemination of the Wahhabi doctrine in Azerbaijan”. Also, the author characterizes the concept of political power in Wahhabism and presents information on appearance forms of Wahhabism in modern Azerbaijan. Conclusion of the research work includes generalization of achieved results and considerations.

**Национальная Академия Наук Азербайджана**
**Институт Востоковедения им. Акад. З.М. Буниятова**

***На правах рукописи***

**ТАГИЗАДЕ ГЮНАЙ ГАРАСИМ КЫЗЫ**

# РАСПРОСТРАНЕНИЕ НЕТРАДИЦИОННЫХ ИСЛАМСКИХ УЧЕНИЙВ СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ

**Специальность – 7213.01 Религиоведение**

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание ученой степени доктора философии по религиоведение

**БАКУ – 2016**